# ABDULLA QURBANİ UCALIĞI



*(Əvvəli ötən sayımızda)*

**Şair Ənvər Əhməd:** -Əziz dostlar, gördüyünüz bu salonda çoxlu sayda tanınmış sənət adamlarının yubileyləri qeyd olunub, amma bu günkü yubiley tədbiri başqalarından köklü şəkildə fərqlənir. Abdulla çoxlarına nümunə ola biləcək alovlu natiq, yüzdən çox kitabı çap olunmuş, iki yüzdən artıq şeirinə mahnı və marşlar bəstələnmiş və kifayət qədər məşhurluq qazanmış vətənpərvər şairimizdir. Mən Anar müəllimə, Fikrət Qocaya da təşəkkürümü bildirirəm ki, onlar bu məclisdə iştirak etməklə hamımızı şərəfləndirdilər. Belə bir fikir var ki, şairlər doğulur, tribun adamlar isə zaman keçdikcə yetişirlər .Abdulla Qurbaninin taleyinə işə həm şair kimi doğulmaq, həm də tribun kimi yetişib-formalaşmaq düşüb. Mən də onun şəxsiyyətinə azdan-çoxdan bələd olan bir insan kimi deyə bilərəm ki, onun ağıllı , sərbəst, zabitəli, yüksək vətənpərvərlik ruhunda olan çıxışlarını ekranlardan seyr etdikcə hər zaman qürur duymuşam. Hərbi paradlar zamanı onun yüksək aparıcılıq məharətini görüb xeyli təsirləndim və qürurla düşündüm ki, bizim də Levitanlarımız formalaşır. Vətənə qəlbən hamımızdan daha çox bağlı olan Abdullanın səsi hər dəfə Murovdan, digər çətin bölgələrdən gəlir. Hamımız yaxşı bilirik ki, qəlbimizi qürurla dolduran şanlı aprel döyüşləri zamanı şəhidlərimiz də oldu. Bu şəhidlərin dəfn mərasimlərini ən yüksək səviyyədə təşkil etmək üçün komandanlıq hər dəfə Abdullanı məsləhət gördü. Tale elə gətirdi ki, mən də onunla birgə bir neçə dəfn mərasimində iştirak edəsi oldum. Bu mərasimlərin biri də İmişlidə çox böyük izdiham şəklində keçirildi. O izdihamın qarşısında Abdulla qardaşım elə həyəcanlı, elə təsirli bir çıxış elədi ki ,hətta şəhidin anası da təsirlənib gözü yaşlı halda oğlu ilə qürur duyduğunu, ona isə dediyi sözlərə və böyük ürəyinə görə hədsiz dərəcədə minnətdar olduğunu bildirdi. Əlbəttə yüzdən artıq kitabdan çoxunu səngərlərdə dizinin üstündə yazmaq, nəticədə isə bu dərəcədə ümumxalq sevgisi qazanmaq və Əməkdar Mədəniyyət Xadimi kimi yüksək fəxri adlara layiq görülmək hər səxsə, hər sənətkara nəsib olan bir xoşbəxtlik deyil. Mən cəsarətlə deyə bilərəm ki, kifayət qədər savadı və bacarığı yerində olan yüz nəfər adam bir yerə yığılsa belə bu adamın 60 ildə gördüyü işləri görə bilməz. Mən əziz dostum Abdulla Qurbani barədə saatlarla, günlərlə danışa bilərəm. Bu gün belə mötəbər tədbirdə mənə aparıcılıq etibar edilibsə, çıxışına ara verib sözü Azərtacda baş direktorun müavini , şəhid atası



Dağbəyi müəlimə verirəm.

**Dağbəyi İsmayılov:** - Əziz dostlar, mənim də Abdulla Qurbani haqda deyəcəyim sözlər kifayət qədər çoxdur. Şəhid övladımın qırx mərasimindən sonra Abdulla müəllim təkidlə məni oğlumun vuruşduğu xidmət etdiyi hissəyə, bölmələrə apardı, döyüşçü dostları ilə tanış etdi, onlarla görüşlərimi keçirdi. Həmin günlər mən çox qəribə hisslər yaşadım. Bir dəfə onun otağına girəndə gördüm ki, Abdulla müəllim şəhidlərin şəkillərini sıra ilə ipdən aşıb və növbə ilə hərəsinə bir şeir həsr edir. Mən ondakı həvəsə ,çalışqanlığa , məhsuldarlığa yaxşı mənada qibtə elədim. Çünki



özüm hələ yol qeydlərimi qaydaya salmağa macal tapa bilməmişdim. Mən arzu edirəm ki, Abdulla müəllim yüz yaşından sonra da bu enerjisini qoruyub saxlamağı bacarsın. O təkcə Azərbaycan ordusunun deyil, həm də xalqımızın zərif və həssas yeri olan şəhid ailələri ordusunun da sevimli bir üzvüdür. Mən onun yeni, növbəti kitabına yazdığım ön sözdə fikirlərimi də , ona olan dərin məhəbbətimi də izhar etmişəm. Heç şübhə etmirəm ki, biz ən yaxın gələcəkdə Abdulla ilə birgə Murovun, Kəlbəcərin ən hündür zirvələrinə çıxmaqla növbəti qələbələrimizi bayram edəcəyik.

**Polkovnik Həmid Cəfərov:** - Abdulla müəllim barədə çıxış etmək, söz söyləmək bizim hər birimiz üçün çox böyük şərəfdir. Kollektivimiz tərəfindən hazırlanmış Fəxri Diplomda yazılmış xoş sözləri indi sizə hörmətli polkovnik Şücəddin Abdullayev çatdıracaq. Mən fəxr edirəm ki, otuz il bundan əvvəl Abdulla müəllimlə birlikdə Naxçıvanın ən məşhur və zəngin muzeylərinin açılışında təşkilati işlər görməklə həm də insanlarda vətənpərvərlik ruhunu gücləndirməyə nail olmuşuq. Mən hələ o zaman qəti şübhə etmirdim ki, aradan uzun illər keçəcək və əziz dostum Abdulla Qurbani şöhrətin, ümumxalq sevgisinin bu günkü zirvəsinə ucala biləcəkdir. Yadıma belə bir əhvalat düşür. Bir gün ümummilli liderimiz uzun müddət Naxçıvanda Nazirlər Kabinetinin sədri işləmiş Əli müəllimdən soruşdu ki, indi nə işlə məşğulsan? Əli müəllim belə cavab verdi: "Gördüyüm işlər o qədər çoxdur ki, onları bir nəfəsə söyləmək qeyri-mümkündür. İndi də burda məclis iştirakçılarına təqdim edilmiş və Abdüllanın bu günkü yubileyinə həsr olunmuş rəngli kitabçaya göz gəzdirən zaman başa düşdüm ki, onun fəth etdiyi zirvələrin adlarını birnəfəsə deyib başa çatdırmaq qeyri-mümkndür. Mən onu ürəkdən təbrik edirəm və arzu edirəm ki, 70, 80, 90 illik yubileylərində də bu məclisdəki dostlarla toplaşıb onu beləcə könül xoşluğu ilə yenidən təbrik edə bilsinlər.

**Polkovnik Şücəddin Abdullayev:** - Abdulla müəllim, mən də burda təmsil olunduğum Təhlükəsizlik Alyansının kollektivi adından Sizi səmimi qəlbdən təbrik edir, Sizə ən xoş arzularımı bildirirəm. Mən qəti şəkildə əmin olduğumu bildirmək istəyirəm ki, Sizin səsiniz və cəsarətiniz tarixi Qələbəimizi qazanacağımız məqamda da öz həlledici sözünü deyə biləcəkdir. Mən bir neçə il bundan əvvəl Milli Təhlükəsizlik Nazirliyi sistemindən ehtiyata buraxıldıqdan sonra İnsan hüquqları İnstitutunda ictimaiyyətlə Əlaqələr üzrə Direktor müavini işləyirdim. Bir gün Abdulla mənə "Azərbaycan ordusunun baş memarı Heydər Əliyev" adlı məqaləsinin əlyazma variantını təqdim etdi. Direktorumuz Rövşən Mustafayev də yazını oxudu və mənə tövsiyyə etdi ki, zərurət yaranacağı təqdirdə bura öz əlavə və düzəlişlərimi edə bilərəm. Mən də yazını diqqətlə oxudum və başa düşdüm ki, bu yazıda hər bir söz çox mükəmməl şəkildə işlənib və hər söz, hər ifadə yerli-yataqlı qələmə alınıb. Yəni ki, bu cür qüdrətli qələm sahibinin əsərində hansısa bir qüsur axtarmaq sırf absurd məsələdir. Abdulla müəllimin qələmə aldığı yüz kitabdan iyirmisi evdəki şəxsi kitabxanamın bəzəyidir və bu kitabların hər birini maraqla, diqqətlə oxumuşam. O, iyirmi kitabdan beşi sərhədçilərə, biri general Abbasəli Novruzova, biri də general Mustafa Nuriyevə həsr olunub. İndi də icazə verin , təşkilatımız adından hazırlanmış Fəxri Diplomu Abdulla müəllimə təqdim edim.

**General mayor Yusif Axundzadə:** - Mən 1970-ci ildən bu günə kimi 46 ildir ki,Silahlı Qüvvələrin sıralarında fasiləsiz xidmət edirəm. Amma bu günə kimi Abdulla Qurbani kimi ikinci istedadlı, qaynar, məhsuldar insan görməmişəm. O, elə bir fenomenal şəxsiyyətdir ki, axşam oturub səhərə kimi mükəmməl bir romanı yazıb başa vurmağa qadirdir. Onun ssenariləri əsasında hazırlanan tədbirlər, ədəbi-bədii gecələr, tamaşalar, teatrlaşdırılmış kompozisiyalar, şeirləri əsasında bəstələnib müxtəlif məclislərdə ifa edilən, efirləri bəzəyən mahnılar Azərbaycan mədəniyyətinin qızıl fonduna daxil edilib. Mən onunla dəfələrlə ayrı-ayrı bölgələrdə olmuşam, müxtəlif profilli tədbirlərdə iştirak eləmişəm. Mən çox danışıb vaxt almaq istəmirəm. Sadəcə olaraq bir faktı yada salmaq istəyirəm. 1983-cü ildə, Sovet hökümətinin vaxtında mən Moskvada, Qızıl Meydanda ikinci dəfə Azərbaycanın hərbi dəniz donanmasını təmsil edirdim. Bu faktı yada salmağım heç də təsadüfi deyil. Noyabrın 7-də keçirilən Dövlət paradının ərəfəsində bir ay yarım sərasər gərgin məşqlər keçirdik. Parad zamanı ölkənin ali rəhbərliyində siyasi büronun üzvü kimi təmsil olunan ümummilli liderimiz Heydər Əliyev cənabları mərkəzi tribunada dayanmışdı. Orda təntənəli surətdə elan edildi ki, Bakıdan gələn nümayəndələr SSRİ Ali Hərbi Dəniz Donanmasının kollektivini təmsil edir. Həmin tədbir kifayət qədər yüksək səviyyədə təşkil olunduğu üçün Hərbi Dəniz Donanmasının komandanı Qorşkovun adından bizə rəsmi şəkildə Təşəkkürnamələr təqdim olundu. Qüdrətli Milli ordu yaratdığımız indiki məsul bir vaxtda mən bu cür maraqlı hadisələri xatırlatmaqdan xüsusilə qürur duyuram. Rəsmi paradlarda və dövlət başçılarının qarşılanma tədbirləri zamanı Heydər Əliyev bir dövlət başçısı kimi etiket qaydalarını çox yaxşı bilirdi və sevindirici haldır ki, bu gün cənab prezidentimiz İlham Əliyev də onun yolu ilə getməyi bacarır. O da təsadüfi deyil ki, Azadlıq Meydanında və digər yerlərdə təşkil edilən rəsmi hərbi paradları idarə etmək və bu zaman aparıcılıq missiyasını yerinə yetirmək kimi çətin və məsuliyyətli vəzifəni də cənab Prezident məhz əziz dostumuz Abdulla Qurbaniyə həvalə edir.

*(Davamı var)*

***Bayram AFURCALI***